# Azərbaycanın gücü - İlham Əliyev



**Elnarə AKİMOVA**
*YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru*

Azərbaycan naminə həyata keçirdiyi misilsiz işlər, imza atdığı siqlətli əməllərlə yanaşı, Ümummilli lider Heydər Əliyevin ən dəyərli əsəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Heydər Əliyevin uğurlu siyasi kursunun bariz örnəyi! İlham Əliyevin siyasi fəaliyyəti, hakimiyyətə gəldiyi illərdən etibarən nümayiş etdirdiyi yüksək səriştə və əzm ilk növbədə, varislik haqqını qoruyaraq Yola davam etməsindədir.

İlham Əliyev sovet epoxasının basqı, təzyiq və çətinliklər içrə yetişsə də milli təəssüb, milli müəyyənlik duyğularını uca tutan lider oldu. Milli məfkurəyə sadiqliyi meyara çevirdi, müstəqil dövlətin keşiyində bu amala xidmətlə dayandı. 2020-ci ilin sentyabrın 27-dən başlayaraq, noyabrın 10-a qədər davam edən 44 günlük müharibə bunun sübutu oldu. Azərbaycan işğal altında olan tarixi torpaqlarını Müzəffər Ordunun və Ali Baş Komandan İlham Əliyevin əzmi ilə geri qaytardı. Bu, həm də öz dəyərlərinə, tarixi haqqına sahib çıxmağı bacaran qüdrətli siyasətçinin gücü demək idi.

* * *

**Bu qələbə İlham Əliyevin ilk növbədə, məfkurə baxımından gördüyü işlərin məntiqi yekunu kimi təzahür etdi. Bu işlər hansılardır?**

Vaxtilə Ümummilli lider Heydər Əliyev "Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz" - deyirdi. İlham Əliyevin də məsələyə münasibəti eyni kontekstdən nəşət edir. Bütün hallarda məqsəd, məram birdir: xalqın milli-mənəvi dəyərlərinin heç bir halda deqradasiyaya məruz qalmasına yol verməmək: "Bütün inkişaf etmiş ölkələr kimi, indi Azərbaycan da öz fəaliyyətini bazar iqtisadiyyatı prinsipi əsasında qurur. Əlbəttə, dünya praktikası artıq sübut edib ki, bu, ən mütərəqqi bir yanaşmadır. Ancaq bəzi hallarda əgər mənəviyyat itirsə, mənəvi dəyərlər o bazar iqtisadiyyatı içərisində əridilirsə, bu, cəmiyyətin normal yaşamasına böyük təhlükə yarada bilər. Biz çalışmalıyıq ki, ölkəmizin uğurlu iqtisadi inkişafını şərtləndirən bütün amillərlə yanaşı, mütləq və mütləq mənəvi dəyərlər itməsin. Bizim ənənələrimiz, tarixi nailiyyətlərimiz saxlanılsın, qorunsun. Əlbəttə, ölkənin gücü, zənginliyi onun iqtisadi qüdrətindədir. Ancaq, eyni zamanda, onun mənəvi gücündədir. Ona güc verən məhz mənəvi dəyərlərdir".

Bu artıq böyük sınaqlardan çıxmış və özünü təsdiq etmiş Heydər Əliyevin dövlətçilik təliminin yeni tarixi reallıqda və müasir dövrün yeniləşən tələbləri işığında uğurla və uzaqgörənliklə davamı deməkdir.

Biz Heydər Əliyev yolunun İlham Əliyevdə davam tapmasından bəhs edərkən yalnız siyasi-diplomatik rakursu nəzərdə tutmuruq. İlham Əliyev elmə, sənətə yanaşmada da Heydər Əliyev qərarlarının qaldığı yerdən başlayır, yaxud verilən sərəncamların yenilənməsində, ədiblərin, görkəmli şəxsiyyətlərimizin dəyərləndirilməsində meyarları qoruyur. Məsələn, görkəmli dövlət xadimi Heydər Əliyevin "Dədə Qorqud" dastanlarına münasibəti ilə Prezident İlham Əliyevin bu möhtəşəm ədəbi abidəni qiymətləndirməsi Azərbaycanda Heydər Əliyevlə başlayan milli-siyasi proseslərin davamlılığından soraq verir. Məlum olduğu kimi, vaxtilə "Dədə Qorqud" dastanlarının 1300 illiyinin qeyd olunması haqqında fərman imzalamış və möhtəşəm yubiley tədbirləri keçirmiş Heydər Əliyev bu dastana mühüm azərbaycançılıq hadisəsi kimi baxmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 dekabr 2013-cü ildə Bakı şəhərində Dədə Qorqud parkının və Dədə Qorqud heykəlinin açılışı mərasimindəki çıxışında da dastana münasibətdə Azərbaycançılıq ön mövqedə dayanmışdır: "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur".

Nizami Gəncəvi ilə bağlı zamanında atılmış mütərəqqi addımlar ölkə prezidenti İlham Əliyev tərəfindən davam etdirilməkdədir. Onun "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı öz icrası ilə qədim dövr ədəbiyyatımızın müasir dünyada təbliğinə xidmət edib. Belə ki, yubiley ilində Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərinin Çaoyan parkında Nizami Gəncəvinin büstü qoyulmuş, 28 oktyabr 2012-ci ildə Meksikanın Akapulko şəhərində isə heykəlinin təntənəli təməlqoyma mərasimi keçirilmişdir. 23 dekabr 2011-ci il tarixli sərəncamı ilə başlanan beynəlxalq tədbirlər silsiləsi 2012-ci ilin 1 oktyabrında Bakıda Heydər Əliyev sarayında başa çatmışdır. Nizaminin 870 illik yubileyi ilə əlaqədar olaraq bütün türk dünyasında "Nizami Gəncəvi ili" elan edilmiş, onun yubileyi TÜRKSOY-da beynəlxalq səviyyədə qeyd olunmuşdur. İlham Əliyev 2013-cü ildə də şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək, yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması, dövrü, ədəbi irsi və məktəbi problemlərinin müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiq olunması məqsədilə Nizami Gəncəvinin 870 illik yubileyinin layiqincə keçirilməsi haqqında sərəncam imzalamışdır.

Təsadüfi deyil ki, müharibə bitən kimi, 2021-ci ili İlham Əliyev "Nizami ili" elan etdi. Bu, mədəni iqlimə köklənməyə gözəl bir vəsilə olmaqla bərabər, geopolitik maraqların mərkəzində olduğumuz indiki məqamda dünyaya bir də Nizami xalqı, Nizami milləti olaraq üz tutmağımızın mesajı kimi simvolik çalar kəsb edir.



Digər bir böyük şairimiz - Nəsimiyə münasibətdən danışmaq olar. Nizamidən bir neçə əsr sonra yaşamış İmadəddin Nəsiminin Şamaxıda heykəlinin açılış mərasimi 2005-ci ilin 26 aprelində baş tutmuş, Prezident İlham Əliyev bu möhtəşəm tədbirdə iştirak etmişdir. 2008-ci ildə onun təşkilatçılığı ilə Hələb şəhərində beynəlxalq konfrans keçirilmiş, Nəsimi ərəb elmi dairələrinin diqqət mərkəzinə gətirilmiş, ərəb alimləri onun yüksək humanist fikirləri ilə tanış olmuşlar. 2004-cü ildə Nəsimi irsinin ikicildliyi 25 min tirajla latın qrafikası ilə çap edilmişdir.

Eləcə də 2017-ci ildə Molla Pənah Vaqifin 300 illik yubileyi YUNESKO səviyyəsində cənab İlham Əliyevin böyük təşkilatçılığı ilə qeyd edilmişdir.

Hüseyn Cavid irsinə münasibətdə də dövlət başçımız xüsusi diqqət sərgiləmişdir. Belə ki, dramaturqun beş cildliyi Turan Cavid tərəfindən nəşr edilmiş, Prezidentin 2005-ci ildə imzaladığı sərəncamla əsərləri latın qrafikasında buraxılmışdır. 2018-ci ildə İlham Əliyevin Hüseyn Cavidin 135 illiyinin keçirilməsi haqda imzaladığı sərəncam dahi şairə göstərilən növbəti iltifat oldu. Bütün bunlar Ümummilli lider Heydər Əliyevin Cavidlə bağlı təməlini qoyduğu siqlətli işlərin nəticəsi idi ki, İlham Əliyevin əməli fəaliyyətində də uğurlu davamını tapırdı.

Ümummilli lider Heydər Əliyev ən çətin dövrlərdə Elmlər Akademiyasını böhrandan qorumuş, "Akademiya - elmin laboratoriyasıdır", - deyərək ona sahib çıxmışdır. Eyni həssas münasibət hakimiyyətdə olduğu bütün dövrlərdə İlham Əliyev siyasətinin prioriteti olmuşdur. Akademiyanın müxtəlif illərdə yubileylərinin keçirilməsi, ayrı-ayrı institutlarının əməkdaşlarının təltif edilməsi, dəyərləndirilməsi buna sübutdur. Prezidentin xüsusi sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasında yaradılmış Yüksək Texnologiyalar Parkının fəaliyyətinin qısa müddətdə marağa səbəb olması, təcrübə-sənaye zavodunda müasir bazarın maraqlarına uyğun məhsullar istehsal etməsi isə ölkə elmi mühitinin ən əhəmiyyətli hadisələrindəndir.

16 aprel 2007-ci ildə haqqında sərəncam imzalanmış Almas İldırımın, 2008-ci ildə Mikayıl Müşfiqin 100, 17 aprel 2007-ci ildə Hüseyn Cavidin 125 illiyinin qeyd olunması müstəsna əhəmiyyət kəsb edir. Bura 130 illiyi qeyd olunan M.Ə.Rəsulzadə, 150 illiyi qeyd olunan Əhməd Ağaoğlu haqda sərəncamları, eləcə də 2018-ci ilin Cümhuriyyət ili kimi qeyd olunması haqda fərmanı əlavə etsək qüdrətli liderimizin dövlətçiliyin gücləndirilməsi üçün hansı məsələlərə daha çox önəm verdiyi məlum olar.

Müsəlman şərqində ilk demokratik respublika kimi tarixdə öz yerini tutmuş

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin 2018-ci ildə ölkədə geniş qeyd edilməsi İlham Əliyevin hadisəyə siqlətli baxışının sayəsində gerçəkləşmişdir. O, bu hadisəni Azərbaycan tarixinin şərəfli səhifələrindən biri kimi qiymətləndirirdi: "Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində ilk demokratik respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha göstərir ki, azərbaycanlılar azadlıqsevər və mütərəqqi xalqdır".

İlham Əliyevin atdığı müqtədir addımlardan biri milli triadanın müəllifi, XX əsrin əvvəllərində türk-turan düşüncəsinin bütövlənməsində müstəsna xidmətləri olmuş Əli bəy Hüseynzadə ilə bağlıdır. Məlumdur ki, 2017-ci ilin sonlarında Əli bəy Hüseynzadənin qızı Feyzavər Alpsar atasına məxsus əşyaları Azərbaycana bağışlamışdır. Bundan bir neçə ay sonra - 2018-ci ilin mart ayının 17-də ölkə başçısı İlham Əliyev böyük ideoloqun qızını "Dostluq" ordeni ilə təltif etdi. Bu, Türkiyə və Azərbaycan arasında münasibətləri möhkəmləndirməyin və Əli bəy Hüseynzadənin ruhuna göstərilən sayğının ən dəyərli nümunəsi oldu.

Bəli, İlham Əliyev dövlətimizin yüksəlişi, Azərbaycanın Avropa mədəniyyətinə inteqrasiyası naminə siyasi, iqtisadi məzmunlu çox qərarlar imzalayıb. Amma elə qərarlar var ki, türk məfkurəsinin illərdir diri qalmasında, bütövlənməsində, türk düşüncəsinin qalibiyyətində təməl rolu oynamaqdadır. Əli bəy Hüseynzadənin tam bərəətinə rəvac verən 21 yanvar 2014-cü il tarixli sərəncam, bir az əvvəl xatırlatdığım kimi, Azərbaycanda 2018-ci ilin Cümhuriyyət ili elan olunması və qeyd etdiyim Əli bəy Hüseynzadənin qızı Feyzavər Alpsarın Azərbaycan dövlətinin böyük mükafatlarından biri olan "Dostluq" ordeni ilə təltif edilməsi. Türk dünyasının nəhənglərinin - Çingiz Aytmatovun, Oljas Süleymenovun layiq görüldüyü "Dostluq" ordeninin Əli bəy Hüseynzadənin qızına təqdim olunması böyük mütəfəkkirin yüz il əvvəl türkçülük, turançılıq istiqamətində gördüyü nəhayətsiz işlərə verilən ən böyük dəyər, qədirdanlıq nümunəsidir.

İlham Əliyevin milli məfkurənin qurulması və qorunması istiqamətində memarı olduğu işlər barədə çox danışmaq olar. O işlər ki, sadalandıqca ölkə rəhbərinin yaddaşa etibarı və milli vüqarı görünür, dövləti ucaltmaq naminə atdığı uzaqgörən, strateji addımların sabahını görməyə imkan yaradır. Və böyük bir tarixi gerçəyi bəlli edir: İlham Əliyevin 2008-ci ildə Bakıda İstiqlal Bəyannaməsini abidələşdirməsi, Azərbaycanda türk qanlı, islam imanlı, Avropa fikirli bayrağımız üçün Bayraq meydanlarını qurması, eləcə də türk ruhunu ehtiva edən aydınlarımızın irsinə həssaslıqla yanaşması bu günün zəfər təntənəsinə hesablanmış strateji gücün təzahürü idi.

60 yaşınız mübarək olsun, cənab Prezident! Qazandığınız Qarabağ zəfəri ilə yaşınızın ən böyük hədiyyəsini özünüz özünüzə və millətimizə etmisiniz. Tanrı ömrün sonrakı davamında bu sevinci doya-doya yaşamağı Sizə və bütün varlığınızla bağlı olduğunuz millətimizə nəsib etsin!

**Ədəbiyyat qəzeti.- 25 dekabr.- 2021- ci il.- S. 13.**